# AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASI

**SƏRBƏST AUDİTOR ƏLİYEV AZƏR HÜSEYN OĞLU VÖEN: 1302270622**

**İCAZƏ SA/360 27 yanvar 2017-ci il**

**Ünvan: Bakı şəhəri, İ.Qutqaşanlı 507-511Altes Plaza 3-cü mərtəbə , ofis №10 Tel: 0502727721 Mail:azeralisoy@mail.ru**


## SƏRBƏST AUDİTORUN HESABATI

**"MEQA SIĞORTA" ASC-nin Səhmdarına və İdarə Heyətinə:**

Mən, "MEQA SIĞORTA" ASC-nin 31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatı və həmin tarixdə tamamlanan il üzrə mənfəət, səhmdar kapitalında dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, eləcə də əsas uçot siyasəti və digər izahedici qeydlərdən ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının audit yoxlamasını apardım.

**Maliyyə Hesabatlarının Hazırlanması üzrə Rəhbərliyin Məsuliyyəti**

Rəhbərlik hazırkı maliyyə hesabatlarının Milli Mühasibat Uçot Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə, həmçinin fırıldaqçılıq və ya səhv üzündən əhəmiyyətli təhriflər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin fikrincə zəruri olan daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

**Auditorun Məsuliyyəti**

Mənim məsuliyyətim apardığım audit əsasında həmin maliyyə hesabatları üzrə rəy bildirməkdir. Mən auditi Milli Mühasibat Uçot Standartlarına uyğun apardım. Həmin Standartlar məndən etik normalara riayət etməyi, auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

Auditə maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar auditorun mülahizəsindən, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən auditor müəssisənin daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisə tərəfindən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirir. Bundan əlavə, auditə mövcud uçot siyasətinin uyğunluğunun və rəhbərliyin uçot ehtimallarının əsaslandırılmasının qiymətləndirilməsi, eləcə də maliyyə hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.

**Rəy**

*Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.*

**19 fevral 2019-cu il**

**Bakı, Azərbaycan Respublikası**

**Azərbaycan Respublikasının**
**Auditorlar Palatasının**
**Sərbəst Auditoru:** Əliyev Azər Hüseyn oğlu

AZƏRBAYCAN RESPUBLİKASI ƏLİYEV AZƏR HÜSEYN OĞLU VÖEN 1302270622